**Elşən Mirişli**
Gəncə şəhəri, tarixçi

# İşğala Qarşı Azərbaycan Milli Hərəkatı

II Yazı

***1920-ci il martın 30-da II Yusifbəyli hökumətinin istefası qəbul edildikdən sonra Azərbaycan parlamenti 1920-ci il martın 30-da Məmmədhəsən Hacinskiyə hökumətin formalaşdırılmasını tapşırdı.Hacinski 1 aprel 1920-ci ildən 27 aprel 1920-ci ilə qədər Nazirlər Şurasının sədri kimi fəaliyyət göstərsə də hökuməti, kabinetini formalaşdırmadı.***

Məmmədhəsən Hacinski,Nəsib bəy Yusifbəyli,Rəsulzadə Məhəmməd Əmin bəylər hazır olduğu halda,vaxtın çox dar olduğu və sabaha qədər Hacınski hökuməti təşəkkül etməzsə,uyğunsuz bəzi hadisələrin baş verə biləcəyi dəqiqləşdi.Ertəsi gün keçirilən iclasda Hacınski keçid kabinetinin təşəkkülünü gözləmək üçün vaxt qalmadığını bildirərək Nəriman Nərimanovun kommunist hökuməti olaraq iş başına keçməsinə qərar verildi.Lakin bu qərarı qəbul etməyən Sovet Rusiyası dərhal ordu ilə hərəkətə keçmək qərarı aldı. Bunun üçün “Müsavat” hökumətinin üsyan yolu ilə devrilməsi lazım gəlirdi. Halbuki üsyan qüvvələri çox zəifdi məsələn, Tağıyev fabrikində çalışan 8300 fəhlədən ancaq 600-ə qədəri üsyana tərəfdar olub,16 bardanka tüfəngləri var idi.Vağzal məntəqəsində olan 1200 işçidən 200-ə qədəri bolşevik olub,1000-i müsəlman idi.Heç bir silahları yox idi.Çornı qorod (qara şəhər) və Belı qorod (ağ şəhər) məntəqəsində 253 üsyançı kommunist olub,bir dənə də silahları yox idi. Müsəlman bolşevikləri arasında ruhən və məfkurə etibarı ilə kommunistliyi həzm etmiş çox az şəxsiyyət vardı.Azərbaycan ordusunda bu fikrə tamamilə tərəfdar olacaq kimsə yox idi.

Zəif qüvvə ilə ediləcək bir üsyanın çox qanlı və talançı,nəticə etibarı ilə 1918-ci ildə olduğu kimi,bir erməni-müsəlman qırğını şəklinə düşəcəyi müzakirə edildi və nəticədə 3-cü və 4-cü iclasların qərarları daxilində Xəlil paşanın dərhal Dağıstana gedərək,Qızıl ordu başına keçməsi və Qafqaz mərkəzi üsyan komitəsinin bu qəti təklifinin Moskva tərəfindən rədd edilməsi imkanı olmadığı Moskva vəkili Viktor tərəfindən nəzərdən keçirilərək komitə üzvləri tərəfindən təsdiq edilərək qüvvəyə mindi.

Elə o gün Dağıstana hərəkət edən Xəlil paşa yolda ikən Qızıl ordu 26 aprel axşamı Azərbaycan sərhəddini keçərək Bakı üzərinə hücuma başlamışdı.Daxili üsyan ilə bir iş görülə bilmədiyindən,Qızıl ordu hələ neçə ay əvvəl qərara alındığı kimi,Azərbaycanı sadəcə olaraq işğal edəcəkdi.

Raport sahibi yazır ki, Türk üzvlərinin məlumat və razılığı olmadan Qızıl ordunun Azərbaycana qarşı



heç bir hərəkət etməyəcəyi mərkəzi komitəsi tərəfindən bizə təmin edildiyi halda,bu xəbər işin içində səmimiyyət olmadığı,ikitərəfli oyun oynandığı və məhz

**_Xəlil paşa da daxil olmaqla Osmanlı İmperatorluq zabitlərinin bir alət kimi istifadə edildiyi,Qızıl ordunun köhnə Osmanlı-rus sərhəddinə qədər irəliləyəcəyi məlum olduğundan sonra belə adları yuxarıda yazılmış zabitlər vasitəsi ilə, telefon,teleqraf,polis mərkəzlərini işğal və Tiflisə qaçmaq istəyən Antanta dövlətləri səfirləri ilə məiyyətində 9 zabit və ya18 silahlı adam,2 avtomat tüfəng olan ingilis admiralı və 96 milyon manat və pul kəsən maşın olan qatar həbs edilmişdi_**

**_Xəlil paşa da daxil olmaqla Osmanlı İmperatorluq zabitlərinin bir alət kimi istifadə edildiyi,Qızıl ordunun köhnə Osmanlı-rus sərhəddinə qədər irəliləyəcəyi məlum olduğundan sonra belə adları yuxarıda yazılmış zabitlər vasitəsi ilə, telefon,teleqraf,polis mərkəzlərini işğal və Tiflisə qaçmaq istəyən Antanta dövlətləri səfirləri ilə məiyyətində 9 zabit və ya18 silahlı adam,2 avtomat tüfəng olan ingilis admiralı və 96 milyon manat və pul kəsən maşın olan qatar həbs edilmişdi_**

türk nüfuzundan istifadə edilmək məqsədilə bizim bir alət kimi istifadə edildiyimiz qənaətini verdi.Buna baxmayaraq, xüsusi qatar yoluna davam etdi və dan söküləndə iki zirehli qatarın qarşısında heç bir müqavimət olmadığı halda stansiyaları bombardman edərək,irəlilədiyi göründü.Bu vəziyyəti görən kəndlilər silahlanaraq bunlara qarşı çıxmağa tələsirdilər.Buna görə Xəlil paşa tərəfindən Azərbaycan zirehli qatarlarının iki rus zirehli qatarına müqavimət göstərilməyərək tez Bakıya qaytıdılması əmr edildi və zirehli qatarlar rus iki zirehli qatarı qarşısında geri qayıtdı.Savaş üçün toplanan əhaliyə xəbərdarlıq edilərək dağıdıldı. XI Qızıl ordu komandanı Levandovski qarşılandı.Polkovnik Skaçkov tərəfindən Levandovskiyə Xəlil paşanın Qızıl Ordu komandanlığını üzərinə götürməsi haqqında komitənin qərarı bildirildi.Levandovski ona Moskva tərəfindən belə bir əmr verilmədiyini,ordusu ilə Osmanlı-rus sərhəddinə qədər irəliləyəcəyini və Xəlil paşanın Moskvaya geri getməsi gərəkliyini qeyd etdi.Rus ağenti olan Xəlil paşa da razılığını bildirdi.

***Xəlil paşa da daxil olmaqla Osmanlı İmperatorluq zabitlərinin bir alət kimi istifadə edildiyi,Qızıl ordunun köhnə Osmanlı-rus sərhəddinə qədər irəliləyəcəyi məlum olduğundan sonra belə adları yuxarıda yazılmış zabitlər vasitəsi ilə, telefon,teleqraf,polis mərkəzlərini işğal və Tiflisə qaçmaq istəyən Antanta dövlətləri səfirləri ilə məiyyətində 9 zabit və ya18 silahlı adam,2 avtomat tüfəng olan ingilis admiralı və 96 milyon manat və pul kəsən maşın olan qatar həbs edilmişdi.***

Bu məlumata bu cür yekun vurmaq lazımdır:O gün axşam şəhərin mühafizəsinə məxsus könüllü əhalidən təşkil olunan və zabitləri sırf Osmanlı türklərindən ibarət olan “yardım alayının” yenə Osmanlı türk zabitləri tərəfindən idarə olunan iki zirehli avtomobillərin və Azərbaycan donanmasında xidmət edən Osmanlı zabitlərindən bir qisminin bolşevik tərəfdarı olduqları,hələ yaradılmamış kabineti ilə istefası qəbul edilmədiyi halda,hökumət işlərini hələ təhvil verməmiş olan köhnə kabinet arasında asılı duran hökumət və onunla bərabər deputatlar məclisi Azərbaycan kommunist partiyasının ultimatumu qarşısında qaldı. Bu ultimatum hökumətin Azərbaycan kommunist partiyasının mərkəzi komitəsinə təslimini tələb etməklə bərabər,Azərbaycanın istiqlalının təmin ediləcəyini və hökumətin ruslara verilməyəcəyinini vəd edirdi.

“Müsavat” pariyasının daim koalisyon hökumətlər təşkil etməyə məcbur idi.Bu məcburiyyətin səbəbi Denikin təhlükəsinə qarşı sosialistlərlə uğurla səyləri bölüşdürmək surətilə istiqlalın mühafizə və müdafiəsinə müvəffəq olan “Müsavat” Denikin təhlükəsi aradan qalxınca və qırmızı təhlükə sərhəddimizə söykəndikdən sonra sağ cinahın başında duran “İttihad”la qüvvələri birləşdirməyə qərar vermişdi. Bu müştərək səylər bir qisim alimlərin təsiri ilə gözlənilməyən bir nəticə vermişdi. Yəni “İttihad”,”Müsavat”a qarşı sosialistlərlə birləşərək parlamentdəki əksəriyyəti pozmuş və istiqlalın süqutuna səbəb olmuşdu. Bu vəziyyəti yaradan bir “qisim başıboş dini alimin” də Xəlil paşa və yoldaşlarının təsiri ilə bu hərəkətləri etmişdilər.Bizə,hadisələrdə şəxsən iştirak etmiş olan Xəlil paşanın yoldaşlarından Tələt bəy anladır.Tələt bəy Türkiyə istiqlal məhkəməsində mühakimə edilərkən bu etirafları etmişdir:

***1.Kazım Karabəkir paşa və Firqə komandanı Cavid bəy,Xəlil paşa və başqalarına yazdıqları çoxlu məktublarda bir an əvvəl bolşeviklərlə təmasa əmr və bu əmrin hər nə bahasına olursa olsun,icrasında israr edirdilər.***

***2.Xəlil paşa və yoldaşları da Azərbaycan müxalifət partiyalarına: “Siz bilavasitə “Müsavat” qarşı birləşmək yolu ilə Nəsib bəy hökumətini devirə bilərsiniz”-deyə tövsiyyə etmişdir.***

***Məmləkətin ən geri və mürtəce qüvvələrini ətrafında toplayan “İttihad” üstəlik Qarabəyov kimi Türkiyədə daha çox nifrət edilən bir liderə malik idi. Bununla bərabər Xəlil paşa və yoldaşları bu qara qüvvəni türk milliyyətçiliyinin timsalı olan və məmləkətin ziyalı zümrəsi ilə geniş xalq kütləsinə arxalanan “Müsavat”a qarşı sövq etməkdən çəkindirmədi.***

**(ardı gələn sayımızda)**